*"Metafizika" Journal* *p-ISSN 2616-6879*
*2021, vol 4, number 3, serial 15* *e-ISSN 2617-751X*

**UOT 94.(479.24).**
**KBT (2) (5Aze) (5Tür)**

**Anzulə CƏFƏROVA** *
*(Azərbaycan)*

***Bakı Dövlət Universiteti***

# AZƏRBAYCAN-TÜRKİYƏ STRATEJİ TƏRƏFDAŞLIĞI VƏ MÜTTƏFİQLİYİ MÜASİR MƏTBUATDA

**Məqaləyə istinad:** Cəfərova, A., [2021] *Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı və müttəfiqliyi mətbuatda.* "Metafizika" jurnalı. № 3 (15), səh. 107-118

**Annotasiya**

Müasir beynəlxalq münasibətlərdə strateji tərəfdaşlıq və müttəfiqlik zamanın ciddi sınağına məruz qalan aktual məsələlərdən biridir. Bu baxımdan respublikamızın müstəqilliyinin son otuz ili ərzində Azərbaycan-Türkiyə münasibətləri uğurla inkişaf edərək genişlənmiş və strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Hazırda dünya siyasətində söz sahibi kimi Türkiyə ilə müttəfiqlik Azərbaycanın milli təhlükəsizliyi və suverenliyinin xarici təhdidlərdən qorunması anlamına gəlir ki, bu prosesdə milli və Türkiyə mətbuatı mühüm rol oynayırlar. Təsadüfi deyil ki, iki müttəfiq ölkənin müttəfiq mətbuatının əlbir fəaliyyəti nəticəsində Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü kontekstində həll olunması beynəlxalq aləmin gündəmində olmuş və onun unutdurulması və ya mövcud status-kvonun Azərbaycana qəbul etdirilməsi baş tutmamışdır. Məqalədə ölkələrimiz arasında qədim köklərə əsaslanan dostluq və qardaşlıq münasibətləri, bütün bu illər ərzində birgə əlaqələrin inkişafının müsbət nəticələri, Azərbaycan mətbuatının iki ölkə arasında müttəfiqlik münasibətlərinin

* Bakı Dövlət Universiteti, "Yeni media və kommunikasiya nəzəriyyəsi" kafedrasının müəllimi
e-mail: aparvizqizi@gmail.com
https://orcid.org/0000-0003-1431-5583

**Məqalənin tarixçəsi:**
Məqalə redaksiyaya daxil olmuşdur: 24.06.2021
Təkrar işlənməyə göndərilmişdir: 07.08.2021
Çapa qəbul edilmişdir: 03.09.2021

möhkəmlənməsi və davamlı xarakter alması sahəsində məqsədyönlü fəaliyyəti təhlil edilir, 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni geosiyasi vəziyyətin perspektivlərinə dair KİV-in materiallarına əsasın təhlillər aparılır.

**Açar sözlər:** Cənubi Qafqaz, Azərbaycan, Türkiyə, Rusiya, Ermənistan, Dağlıq Qarabağ, KİV, Şuşa Bəyannaməsi, ərazi bütövlüyü, mətbuat, strateji müttəfiqlik, təhlükəsizlik, geosiyasi rəqabət, informasiya müharibəsi, qlobal layihələr.

## Giriş

Dünyanın müasir geosiyasi mənzərəsi özünün rəngarəngliyi, xaotikliyi və başgicəlləndirici proseslərin və hadisələrin cərəyan etməsi ilə səciyyəvidir. Müasir beynəlxalq hüququn böyüklü-kiçikli bütün aktorlarının maqar və mənafelərinin toqquşduğu geosiyasi şəraitdə daimi strateji tərəfdaş axtarışı elə də asan məsələ deyildir. Lakin bu fikri bütünlüklə Azərbaycan-Türkiyə münasibətlərinə aid etmək olmaz. Unutmayaq ki, müasir Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün *"Azərbaycanın sevinci bizim sevincimizdir, kədəri bizim kədərimizdir!"* və Ümummilli lider Heydər Əliyevin *"Biz bir millət, iki dövlətik"* deyimləri həm Türkiyədə, həm də Azərbaycanda ölkələrimiz arasında əlaqələrin tarixini, bu gününü və gələcəyini özündə ehtiva edən birliyimizin formulu kimi mənalandırılmaqdadır.[1]

Strateji müttəfiq və qardaş ölkələr kimi Türkiyə və Azərbaycanı oxşar talelər, dini, siyasi, iqtisadi, hərbi, ticari, elmi-mədəni, ümumiyyətlə, bütün sahələrdə tarixi yaxınlıq və eyni milli-mənəvi dəyərlər birləşdirir. Tarixin müxtəlif dövrlərində davamlı və uzunmüddətli əlaqələrə malik Türkiyə və Azərbaycanın ictimai-siyasi, iqtisadi-sosial və mədəni əlaqələri dinamik şəkildə inkişaf etməkdə və genişlənməkdədir. Həmişə bir-birinin köməyini, çətin sınaqlarda dəstəyini hiss edən ölkələrimizi keçmiş və yaşanmaqda olan problemlərə diqqət və qayğı, səmimiyyət, qardaşlığın və milli birliyin genetik kodları birləşdirir. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, "*hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari - bütün sahələrdə bu əlaqələr artaraq davam etməkdədir. Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır*".[2]

## Hər yeni sınaq ölkələrimiz və xalqlarımız arasında qardaşlıq bağlarını daha da möhkəmləndirir

Azərbaycan-Türkiyə müttəfiqliyi, dostluğu və tərəfdaşlığı nəinki iki ölkənin milli mətbuatının, ümumiyyətlə dünyanın bütün kütləvi informasiya vasitələrinin gündəmindən düşməyən aktual məsələlərin sırasındadır. Təkcə Azərbaycanın son otuz illik müstəqillik dövrünün tarixi təcrübəsi göstərir ki, zamanın sınaqlarına baxmayaraq iki ölkənin dostluq və qardaşlıq əlaqələri daha da möhkəmlənməkdə davam etməkdədir. Təsadüfi deyildir ki, Türkiyədə 2016-cı ilin olayları yaşanarkən qardaş ölkənin yanında yer alan ilk dövlət Azərbaycan Respublikası olmuşdu. Türkiyə mətbuatı həmin günlərdə yazırdı ki, *"eyni dildə danışan, bir dinə etiqad*

*edən, bir soykökündən yaranan Azərbaycan və Türkiyə yenə zamanın sınağından uğurla çıxır. Bu iki qardaş ölkənin arasına nifaq toxumu səpmək istəyənlər daim uğursuzluğa düçar olublar. Hər yeni sınaq ölkələrimiz və xalqlarımız arasında qardaşlıq bağlarını daha da möhkəmləndirir".* [3] Dövlətlərarası münasibətlərin daim yüksək səviyyədə saxlanması, milli maraqları əhatə edən məsələlərdə tərəflərin bir-birini müdafiə etməsi Azərbaycan və Türkiyə rəhbərliyinin real şəkildə həyata keçirdikləri uğurlu siyasətin məntiqi nəticəsidir.

Azərbaycanlı müəlliflərdən X.Kazımlı Türkiyənin Yaxın Şərqdə müstəqil geosiyasi aktor kimi "oyun meydanına" daxil olduqdan sonra ölkədə 2016-cı ildə yaşananların hərtərəfli təhlili əsasında belə bir nəticəyə gəlmişdi ki, "Türkiyənin artıq itirəsi bir şeyi yoxdur, çünki Avropaya yönəlik siyasəti effektli olmadı, Rusiyayla əbəs yerə gərginliklər yaşandı, ABŞ-la strateji müttəfiqliyinin səmimi olmadığı ortaya çıxdı, region dövlətlərinə münasibətdə nə qədər xoş davransa da, adekvat reaksiya görmədi. İndi o, hücuma keçməlidir, yenidən güclü dövlət olduğunu dünyaya göstərməlidir. [4] Təsadüfi deyil ki, müəllifin cərəyan etməkdə olan hadisələrə belə dəyərləndirmələrini zaman tezliklə həqiqətə çevirdi.

Azərbaycanın Türkiyə ilə ikitərəfli və çoxtərəfli əlaqələrinin müqavilə-hüquqi bazasının kifayət qədər geniş, hərtərəfli və uzunmüddətli olması mühüm əhəmiyyət kəsb edirdi. "Xalq qəzeti" ölkələrimiz arasında qurulmuş diplomatik-siyasi əlaqələrin inkişaf tarixini ümumiləşdirərək yazırdı ki, *"ötən 21 il ərzində müstəqil Azərbaycan ilə Türkiyə arasında mühüm əhəmiyyətə malik 100-dən çox sənəd imzalanmış və onlar istər qarşılıqlı faydalı əlaqələrin inkişafında, istərsə də regional əməkdaşlığın genişlənməsində xüsusi rol oynamışdır*". [5] Bütün bunlar, ölkələrimiz və xalqlarımız arasındakı dostluq, qardaşlıq və strateji əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən və sarsılmazlığından xəbər verirdi.

Hazırda Azərbaycanın etibarlı strateji tərəfdaşı kimi Türkiyə ilə münasibətlətini daha da möhkəmləndirməsi dövlətimizin xarici siyasət fəaliyyətində xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan 2010-cu il 16 avqust tarixli "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqavilənin və "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında" Birgə Bəyənnamənin imzalanması [6] dövlətçiliyimizin və istiqlaliyyətimizin düşmənlərində ciddi narahatçılıq yaratmışdır. Belə narahatlıq xüsusilə, Azərbaycanın siyasi və iqtisadi baxımdan getdikcə güclənməsini qısqanclıqla izləyən, ərazi bütövlüyümüzə qəsd edən dövlətlərin, o cümlədən Ermənistan hakimiyyətinin daim təşviş içərisində olmasının başlıca şərtidir. Məlum olduğu kimi, Türkiyə dövləti 1993-cü ilin aprelində Ermənistan qoşunları Azərbaycanın Kəlbəcər rayonunu işğal etdikdən və BMT-nin işğal olunmuş əraziləri tərk etməsi barədə qətnaməsini icra etməkdən imtina etdikdən sonra Ermənistanla dövlət sərhədlərini bağlamışdı və belə qapanma hal-hazıra qədər davam etməkdədir. [7] Ermənistanın birtərəfli qaydada 2009-cu il Sürix protokollarına əsasən Türkiyə sərhədlərinin açılmasına etdiyi cəhd tam məğlubiyyətlə nəticələndikdən sonra Ermənistan hakimiyyəti daha aqressiv mövqe sərgiləməyə başlamışdı. Belə ki,

Ermənistan prezidenti Serj Sarkisyan *"Biz Qarabağ məsələsini həll etdik, gələcək nəsil Ararat məsələsini həll etməlidir"* bəyanatını verməklə [8] açıq şəkildə Türkiyəyə ərazi iddialarını bəyan etmişdi.

Ermənistan Prezidentinin bəyanatını şərh edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "belə fikirlər dövlət xadiminə yaraşmır, gənc nəsli nifrətə sürükləmək olmaz" fikrini səsləndirmiş, prezident Serj Sarkisyanın ciddi siyasi səhvə yol verdiyini və buna görə də üzr istəməli olduğunu bildirmişdi. Serj Sarkisyanın bəyanatına münasibət bildirən Azərbaycan Prezidenti İlham Əliyevə görə, "Ermənistan Prezidentinin bu bəyanatında Ermənistan rəhbərliyinin aqressiv mahiyyəti özünü açıq şəkildə göstərir, Dağlıq Qarabağ məsələsini həll etdiyi fikrini səsləndirməklə səhvə yol verir və çox yanılır. "Azərbaycanın Dağlıq Qarabağ üzərində suverenliyi dinc və ya hərbi yolla mütləq bərpa olunacaqdır".

Məlum olduğu kimi, Ermənistan rəhbərliyi təkcə Azərbaycana deyil, həm də Türkiyəyə qarşı ərazi və soyqırım iddiaları ilə çıxış etməkdədir. Ərazisində qanuni şəkildə 60 min nəfərə yaxın, qeyri-qanuni şəkildə isə yüz min nəfərdən çox ermənilərin yaşadığı Türkiyəyə ərazi iddiaları ilə çıxış etmək [9] isə bir növ özünə qəsd etməyə bərabərdir. Təsadüfi deyildi ki, İlham Əliyev Ermənistanın iddialarını qiymətləndirərkən qeyd etmişdi ki, *"onlar reallıq hissini o dərəcədə itiriblər və ya illüziyalara qapanıblar ki, Türkiyəyə qarşı təcavüzkar niyyətlər bildirirlər ki, bu da ağılsızlıqdır"*. [10] Dünyadakı havadarlarına və diasporuna arxalanmaqla həyata keçirilməsi planlaşdırılan bu siyasətin puçluğunu "44 günlük Vətən müharibəsi" aydın şəkildə göstərdi. Bu müharibə həm də Cənubi Qafqazın geosiyasi mozaikasında hər şeyi dəyişdi və yeni qüvvələr nisbətini formalaşdırdı.

Azərbaycanlı müəlliflərdən Q.Məmmədov bu prosesdə mətbuatın əhəmiyyətini xüsusi qeyd edərək yazırdı ki, yeni yaranmaqda olan Azərbaycan milli mətbuatı başgicəllədici sürətlə dəyişən situasiyanı necə dərk etməsindən asılı olmayaraq informasiya burulğanına düşdü və informasiya müharibəsinin iştirakçısına çevrildi. Məhz həmin dövrdə amerikan politoloqlarından Pol Qobl regionda yaranmış vəziyyəti təhlil edərək baş verənlərin "razılaşdırılmış" xarakterinə diqqəti yönəltmiş və yazmışdı ki, "dərindən diqqət yetirildikdə Qafqaz siyasət meydanında əlavə fiqurların olduğu aydın görünür ki, bunlar baş verənlərlə bu və ya başqa dərəcədə əlaqəlidir". Cənubi Qafqaz keçmiş SSRİ məkanının bir hissəsi kimi son otuzillik dövr ərzində Rusiya, Türkiyə və İranla yanaşı, ABŞ və Avropa ölkələrinin də maraq dairəsində olmuş və olmaqdadır ki, bu amil regionda gedən geosiyasi oyunlarda və informasiya müharibəsində həlledici əhəmiyyətə malikdir. [11] Təsadüfi deyil ki, milli mətbuat Azərbaycan-Türkiyə strateji tərəfdaşlığına digər sahələrlə yanaşı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi prizmasında yanaşır, Azərbaycanın bütün sahələrdə qazandığı uğurları ölkənin ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan diplomatik-siyasi və hərbi mübarizə ilə bağlayırdı.

**Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında mühüm əhəmiyyət kəsb edirdi**

Azərbaycan mətbuatı və digər kütləvi informasiya vasitələrində 44 günlük Vətən müharibəsi ərəfəsində Cənubi Qafqazda və bu regionun ətrafında cərəyan etməkdə olan proseslər diqqətlə təhlil edilir, regionda yaranmış şərait "tufandan əvvəlki durum" kimi səciyyələndirilir və Rusiya ilə əməkdaşlıq məsələri önə çəkilirdi. "Rusiya-Türkiyə yaxınlaşması Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərəcək. Dağlıq Qarabağ problemi onsuz da Azərbaycanın apardığı siyasət nəticəsində öz həllinə yaxınlaşır. Aprel hadisələri isə Azərbaycanın bütün sahələrdə, o cümlədən, hərbi sahədə işğalçı Ermənistandan üstün olduğunu göstərdi. Bu, həm də ölkəmizin, torpaqlarımızın işğalının gələcək nəsillərə qalmasında maraqlı olmadığının göstəricisidir. Bununla belə, Türkiyənin yenə də problemin həllinə dəstək verəcəyi, eyni zamanda, Rusiya ilə danışıqlarında vaxtaşırı bu məsələni qaldıracağı gözlənilir. Bu faktdır ki, Azərbaycanla Türkiyənin qardaşlığı, bütün beynəlxalq məsələlərdə eyni mövqedən çıxış etmələri həm bölgənin, həm də dünyanın xeyrinədir". [12]

Tədqiqat prosesində toplanmış sənəd və materialların, habelə dünyanın müxtəlif KİV-lərindən götürülmüş informasiyaların təhlili göstərir ki, hazırda dünyanın real güc mərkəzlərindən birinə çevrilmiş, xüsusilə Yaxın Şərqdə baş verənlərdə söz sahibi olan Türkiyənin beynəlxalq mövqeləri o dərəcədə güclənmişdir ki, bunu az qala "Osmanlı dövlətinin ikinci qayıdışı kimi" dəyərləndirir və etiraf edirlər. Nəticədə, Türkiyə ilə çiyin-çiyinə XX-XXI əsrlərin qlobal layihələrini reallaşdırmaqda olan Azərbaycanın mövqelərinin nə dərəcədə güclü olduğunu etiraf etmək üçün sadəcə "erməni olmamaq" lazımdır. Məhz buna görə də milli mətbuat Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin beynəlxalq aləmdə nüfuzu ilə bağlı aşağıdakı fikrini qəzetlərin manşetinə çıxarmış və yayımlamışdı: "Türkiyə bu gün dünya miqyasında güc mərkəzi kimi bütün bölgələrdə, o cümlədən bizim bölgəmizdə çox müsbət rol oynayır və bu bölgənin sabitliyi üçün çox önəmlidir". [13]

Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı, Türkiyənin beynəlxalq aləmdə artmaqda olan nüfuzu və Rusiya-Türkiyə münasibətlərinin istiləşməsi Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycanlı politoloqlardan A.Mirzəzadə hələ illər öncə yaxın gələcəkdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycanla Türkiyə və Rusiya arasında məsləhətləşmələrin birgə aparılmasını mümkün variantlardan biri kimi nəzərdən keçirərək qeyd etmişdi ki, *"işğalçı ölkə bunun qəti əleyhinədir, çox təəssüf ki, həlletmə mexanizmi formalaşanda Ermənistanın da mövqeyi nəzərə alınmalıdır. O baxımdan da, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Türkiyənin Rusiya ilə ayrıca görüş keçirməsi inandırıcı görünmür. Bununla belə, böyük bir dövlətin problemin həllinə təsir etmək imkanının olması müsbət faktordur. Biz həmçinin probelmin həlli ilə yanaşı, həllindən sonrakı dövrə də nəzər yetirməliyik. Həmin mərhələdə Ermənistanla sərhədlərin açılması və Ermənistan-Türkiyə ticarət əlaqələrinin qurulması da müzakirə olunacaq. Problem mərhələli yolla həll edilərsə,*

*işğalçı ölkə Türkiyə ilə sərhədlərin açılması məsələsini qaldıra bilər. Türkiyə Ermənistan qoşunlarının Azərbaycan ərazisindən tam şəkildə çıxarılmasını istəyir. Ankaranın bu prinsipial mövqeyi Ermənistanı bir sıra məsələlərdə düşünməyə vadar etməlidir".* [14] Təsadüfi deyildi ki, Azərbaycan və türk mediası son onilliklər ərzində bu istiqamətdə məqsədyönlü ideoloji iş aparmaqda idilər ki, nəticələri hazırda özünü göstərməkdədir.

**Birgə Media Platforması ortaq media qurumu olub Azərbaycan həqiqətlərinin dünyada yayılmasında mühüm rol oynamaqdadır**

Məlum olduğu kimi, 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradından sonra iki ölkənin dövlət rəsmiləri "Azərbaycan və Türkiyə respublikaları arasında media sahəsində strateji əməkdaşlıq haqqında" Anlaşma Memorandumu imzaladılar. Sənəd media əlaqələri üçün sağlam infrastrukturun yaradılması, məlumat, bilik, təcrübə və mənbələr mübadiləsi, iki ölkənin media sahəsində çalışan rəsmi qurumlarının birgə araşdırmalar həyata keçirməsi, təlim və mübadilə proqramlarının təşkil olunması, fikir liderləri arasında rabitə körpülərinin qurulması kimi məsələləri özündə ehtiva edirdi. [15] Anlaşmaya əsasən yaradılan Birgə Media Platforması ortaq media qurumu olub Azərbaycan həqiqətlərinin dünyada yayılmasında mühüm rol oynamaqdadır. "Şərq qəzeti" yazırdı: *"Biz 44 gündə Türkiyə və Azərbaycanın informasiya məkanının birləşdiyini, vahidliyini gördük. Onlar Vətən müharibəsinin hər gününü bizimlə bərabər yaşadılar, kədərimizlə və sevincimizlə bir oldular. Türkiyənin aparıcı televiziya kanalları Ali Baş Komandanla geniş müsahibələr apardılar, onu dünyanın gündəminə çevirdilər, haqq səsimizi yaydılar, eyni zamanda döyüş bölgələrindən, səngərdən 44 gün ərzində daim reportajlar verdilər, faktiki olaraq savaşdılar, peşəkarlıq, operativlik və fədakarlıq nümunələri yaydılar".* [16]

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinə nəzər yetirsək, görərik ki, istər Ümummilli lider H.Əliyev, istərsə də Azərbaycan Prezidenti İ.Əliyev münaqişənin nizamlanmasını ölkənin sosial-iqtisadi inkişafı, çoxşaxəli islahatların keçirilməsi, daxili sabitlik və ordu quruculuğu ilə bağlı olduğunu dönə-dönə dilə gətirmişdilər. Azərbaycanlı müəlliflərdən A.Hüseynov məsələyə bu yönümdən yanaşaraq müsahibələrindən birində xüsusi olaraq qeyd etmişdi ki, "bu gün ən nəhəng qaz və neft kəmərləri Azərbaycan-Türkiyə tranzit məkanı vasitəsilə dünyaya uzanmaqdadır, bunun hansı siyasi güc olması bütün dünya dövlətlərinə yaxşı məlumdur. Məhz bu amillər hər iki ölkənin dünya iqtisadiyyatına inteqrasiyasında mühüm rol oynayır və qarşılıqlı əməkdaşlığı nəzərdə tutan yeni-yeni layihələr dünya birliyində Azərbaycanın və Türkiyənin nüfuzunun, mövqeyinin güclənməsinə təkan verir. Bu gün hər iki ölkənin iqtisadiyyatı istər dövlət şirkətləri, istərsə də biznes qurumları üçün açıqdır. Ölkələr arasında ticarət dövriyyəsi 3 milyard dollardan artıqdır və Türkiyə bu rəqəmi ən azı 10 milyard dollara çatdırmaq istəyir". [17] Milli mətbuatda gedən başqa bir yazıya görə, "hazırda Azərbaycanın Türkiyəyə yatırdığı sərmayənin həcmi 14 mlrd. doll., Türkiyənin Azərbaycana yatırdığı sərmayənin həcmi isə 12 mlrd. doll. həcmindədir.

Bu gün iki ölkə arasında iqtisadiyyat, enerji və hərbi sahələrdə əməkdaşlıq uğurla davam etdirilməkdədir". [18]

Ermənistanın Rusiya ilə müttəfiqliyə əsaslanmaqla Cənubi Qafqazda söz sahibi kimi çıxış etməyə çalışdığı zamanlar çoxdan keçmişdir. Zaman Azərbaycanın xeyrinə işləyir. Azərbaycanın reallaşdırmaqda olduğu qlobal layihələr, Ermənistanın bu layihələrdən uzaq salınması və regional əməkdaşlıqdan kənarlaşdırılması ilk növbədə Ermənistan rəhbərliyinin uzağı görməyən, formalaşmaqda olan geosiyasi reallıqları dərk etməyən siyasətinin nəticəsidir. Azərbaycanın Gürcüstanla ittifaqda Türkiyədən keçməklə reallaşdırdığı enerji və nəqliyyat dəhlizləri diplomatiyanın dili ilə desək, ərazi bütövlüyümüz uğrunda mübarizə ilə üzvi şəkildə bağlanmışdır. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin NTV kanalına müsahibəsində təsadüfi olaraq demirdi ki, "Ermənistan iqtisadi cəhətdən, hərbi cəhətdən Azərbaycan ilə rəqabət aparmaq iqtidarında deyildir. Eyni zamanda, regionda gedən proseslər, regional əməkdaşlıq, Azərbaycan, Gürcüstan, Türkiyəni birləşdirən bütün enerji layihələri, Orta Asiyanı Avropa ilə birləşdirən nəqliyyat dəhlizləri - hamısı Ermənistandan yan keçir. Nə üçün? Çünki biz ona icazə vermirik. Biz imkan verə bilmərik ki, işğalçı dövlət gəlsin, burada bizimlə hansısa regional əməkdaşlıqda iştirak etsin. Pegional əməkdaşlıq Ermənistansız mümkündür, amma Azərbaycansız mümkün deyildir". [19] Türkiyənin nəqliyyat və kommunikasiya naziri B.Yıldırım isə APA agentliyinə müsahibəsində "Bakı-Tiflis-Qars xətti, Mərmərə və tikintisi davam edən sürətli qatar layihələri ilə yalnız Türkiyə deyil, Gürcüstan və Azərbaycan da Asiya-Avropa dəhlizinin ən sərfəli və etibarlı variantı halına gələcək" fikrini səsləndirməklə regionun gələcəyi ilə bağlı perspektivlərin nə dərəcədə uğurlu olacağı fikrini bütün dünyaya bəyan etmişdi. [20] Hazırda "Əsrin müqaviləsi"ndən başlanan yolun ümumilikdə bütün region xalqlarına təhlükəsizlik, əmin-amanlıq və səadət gətirdiyi dünya informasiya vasitələrinin gündəmində olan başlıca mövzulardan biridir.

**Azərbaycan və Türkiyə mətbuatı II Qarabağ müharibəsində qələbəni həm də Azərbaycan diplomatiyasının informasiya müharibəsində böyük uğuru kimi qiymətləndirdi**

Azərbaycan və Türkiyə mətbuatı II Qarabağ müharibəsində qələbəni həm də Azərbaycan diplomatiyasının geosiyasi meydanda və informasiya müharibəsində böyük uğuru kimi qiymətləndirərək 44 günlük müharibədən sonra 2020-ci il noyabrın 10-da imzalanmış Üçtərəfli bəyənnaməyə əsasən Zəngəzurdan Naxçıvana koridorun açılmasını hadisə və proseslərin planlı şəkildə ardıcıllıqla idarə edildiyini deməyə imkan verirdi. "Xalq qəzeti"nin yazdığına görə 2021-ci il fevralin 25-də nəqliyyat sahəsinə aid daha bir mühüm sənəd - Anlaşma Memorandumu imzalandı ki, sənəd Qars-İqdır-Naxçıvan dəmir yolunun tikintisini və Naxçıvana 160 km uzunluğunda qaz kəmərinin çəkilməsini nəzərdə tuturdu. Prezident İ.Əliyev sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatında nəqliyyat sahəsində böyük nailiyyətlərimizin olduğunu vurğuladı və Qars–Naxçıvan dəmir yolunun tikintisinə dair Anlaşma Memorandumunun imzalanmasının xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırdı: "Bu, xüsusi əhəmiyyət daşıyan məsələdir.

Çünki Ermənistanın işğalçı siyasətinə görə, Naxçıvan uzun illərdir, demək olar ki, blokada, yəni mühasirə şəraitində yaşayır. Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılması böyük problemdir”. [21] Dəmir yolu və qaz kəmərinin reallaşmasından sonra Naxçıvanın həm İrandan, həm də Türkiyədən dəstək almaqla daha güclü bir vəziyyətə gələcəyi, Şimal-Cənub nəqliyyat dəhlizində açar nöqtəyə çevriləcəyi şübhəsizdir.

Azərbaycan - Türkiyə strateji tərəfdaşlığının son mühüm aktlarından biri də Türkiyə Prezidenti R.T.Ərdoğanın 2021-ci il iyunun 15-16-da - ölkəmizin Qurtuluş günü Azərbaycana səfəri, səfərin gedişində keçirilmiş görüşlər və imzalanmış sənədlərdir. Qeyd edək ki, Türkiyə Prezidenti səfərdən bir gün əvvəl NATO sammitində iştirak etmiş, ABŞ Prezidenti C.Baydenlə görüşmüş, Dağlıq Qarabağ münaqişəsi və 44 günlük Vətən müharibəsi haqqında müzakirələr aparmış, dünya siyasət meydanında Azərbaycanın tək olmadığına diqqəti yönəltmiş və artıq Azərbaycanın ərazi bütövlüyünün müzakirə mövzusu olmadığını bəyan etməklə Ermənistanın və onun havadarlarının canına vəlvələ salmışdı. Səfərin gedişində 11 tarixi bəyannamə imzalanmış, Şuşa Bəyannaməsi qəbul olunmuş, Şuşada Türkiyə Baş Konsulluğunun və türk litseyinin açılması, birgə təlim mərkəzinin yaradılması razılaşdırılmışdı.

Strateji əhəmiyyətinə görə, Şuşa Bəyannaməsini Azərbaycanın Milli Təhlükəsizlik Aktı, regional təhlükəsizlik modelinin əsaslı şəkildə dəyişməsi və iki ölkə arasında müttəfiqlik münasibətlərinin tamamilə yeni vəziyyəti kimi dəyərləndirmək olar. Bəyannamə “iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək, 9 fevral 1994-cü il tarixində imzalanmış “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə”ni və “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol”u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə”ni rəhbər tutaraq” dövlətlərimiz arasında müttəfiqlik münasibətlərinin yeni dövrünün başlandığını dünyaya bəyan edirdi. [22]

Şuşa Bəyannaməsinə görə, *“Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər... Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə,*

*insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər"*. [23]

**Nəticə**

Azərbaycanlı politoloqlardan R.Musabəyova görə, "Türkiyə Prezidenti R.T.Ərdoğanın Azərbaycana səfəri Ermənistanda revanşist düşüncədə olanlar üçün bir mesajdır. Həm də erməniləri himayə edən beynəlxalq güclərə bir ismarışdır. Ona görə də düşünürəm ki, Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri həm öz xalqlarımıza, həm də dünyaya Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin bir nümayişidir". [24] Bu səfər eyni zamanda Şuşanın bir Azərbaycan şəhəri olaraq mövcudluğunun və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin qarantı əhəmiyyətinə malikdir. 44 günlük müharibə nəticəsində regionda yeni güc mərkəzi formalaşmaqdadır.

Şuşa Bəyənnaməsinin mühüm əhəmiyyətə malik xüsusiyyətlərindən biri də Cənubi Qafqazdakı qaynar münaqişə ocaqlardan birinin qapanmasından, regionda davamlı təhlükəsizlik və dinc birgəyaşayış mühitinə imkan yarandıqdan sonra "3+3 förmatı" çərçivəsində - yəni Azərbaycan, Gürcüstan, Türkiyə, Rusiya, Ermənistan və İranın iştirakı ilə regional təhlükəsizliyin yeni platformasının yarandığını bəyan etməsi idi ki, onun nə dərəcədə həyati olduğu zaman keçdikcə daha dərindən dərk ediləcək və reallaşacaqdır.

***Ədəbiyyat siyahısı***
***(References)***

1. Əliyev Z. Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır // Respublika qəz., 12.03.2021
2. Azərbaycan-Türkiyə münasibətləri daha da möhkəmlənir // Azərbaycan qəz., 19.05.2010
3. Türkiyə mətbuatı Azərbaycanı "ağır günün dostu" adlandırdı // Azərbaycan qəz., 18.03.2016
4. Kazimlı X. Türkiyə ikinci istiqlal savaşına başlamağa məcbur qaldı // Yeni Musavat qəz., 17.12.2016
5. Azərbaycan-Türkiyə: dostluq və qardaşlıq əlaqələri // Xalq qəzeti, 19.01.2013
6. Azərbaycan-Türkiyə həmrəyliyi və strateji tərəfdaşlığı daha da möhkəmlənir // Azərbaycan qəz., 01.01.2017
7. Türk-erməni münasibətlərində Qarabağ məsələsi//https://azdiplomat.wordpress.com/2014/08/02/turk-erm%C9%99ni-munasib%C9%99tl%C9%99rind%C9%99-qarabag-m%C9%99s%C9%99l%C9%99si/
8. Yenə orada.
9. Ermənilər//https://az.wikipedia.org/wiki/Erm%C9%99nil%C9%99r

10. Azərbaycan-Türkiyə münasibətləri: danışıqlar və reallıqlar (təhlil) // http://www.amerikaninsesi.org/a/ azrbaycan-turkiy-munasibtlri-danqlar-v-reallqlar-thlil---126267948/723371.html
11. *II Qarabağ müharibəsində qələbə həm də Azərbaycan diplomatiyasının geosiyasi meydanda və informasiya müharibəsində böyük uğurudur/http://newtimes.az/az/relations/7340/*
12. Yenə orada
13. Kərimova S. Bir millət, iki dövlət // "Azərbaycan müəllimi" qazeti, 05.03.2021
14. "Rusiya-Türkiyə yaxınlaşması Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərəcək"/ Həftə .az saytı – 30.06.2016
15. Zahid Oruc. Türk mediası Vətən müharibəsində xalqımızla çiyin-çiyinə döyüşdü. Şərq qəz., 01.02.2021
16. Yenə orada.
17. Azərbaycan və Türkiyə sarsılmaz dostluq və qardaşlıq formatı yaradıblar //http://www.yap.org.az/az/ view/interview/301/azerbaycan-ve-turkiye-sarsilmaz-dostluq-ve-qardashliq-formati-yaradiblar
18. Azərbaycan-Türkiyə qardaşlığı və müttəfiqliyi sarsılmazdır // Azərbaycan qəz., 27.04.2018
19. İlham Əliyev: Münaqişənin sülh yolu ilə həlli imkanları hələ tükənməyib. 525-ci qəzet, 08.06.2004
20. Azərbaycan-Türkiyə münasibətləri: danışıqlar və reallıqlar (təhlil) https://www.amerikaninsesi.org/a/azrbaycan-turkiy-munasibtlri-danqlar-v-reallqlar-thlil---126267948/723371.html
21. Məmmədov S. . Azərbaycan – Türkiyə dostluğu və qardaşlığı sarsılmazdır // Xalq qəzeti, 11.06.2021
22. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi // Azərbaycan qəz., 16.06.2021
23. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi // Azərbaycan qəz., 16.06.2021
24. Ərdoğan Şuşada bu açılışları edəcək/http://www.xeber365.com/haber-rdogan-susada-bu-acilislari-ed-c-k---detallar-30584.html http://www.xeber365.com/haber-rdogan-susada-bu-acilislari-ed-c-k---detallar-30584.html

## Annotation

**Dr. Anzula Jafarova**

### Azerbaıjan-Turkey strategıc partnershıp and allıance ın the medıa

Strategic partnership and alliance in modern international relations is one of the most pressing issues of the time. From this point of view, during the last thirty years of the independence of our republic, the Azerbaijani-Turkish relations have successfully developed and reached the level of strategic alliance. At present, the alliance with Turkey which play a great role in world politics means the protection of Azerbaijan's national security and sovereignty from foreign threats, in which the national and Turkish media play an important role. It is no coincidence that as a result of the joint activities of the allied press of the two allied countries, the settlement of the Nagorno-Karabakh conflict in the context of the territorial integrity of Azerbaijan was on the agenda of the international community, and its obscurity or the establishment of the status quo in Azerbaijan did not happen. The article analyzes the friendly and fraternal relations between our countries based on ancient roots, the positive results of the development of joint relations over the years, the purposeful activities of the Azerbaijani media to strengthen allied relations between the two countries, basic analysis of media materials on the prospects of the new geopolitical situation in the South Caucasus after the 44-day war.

**Keywords:** South Caucasus, Azerbaijan, Turkey, Russia, Armenia, Nagorno-Karabakh, media, Shusha Declaration, territorial integrity, press, strategic alliance, security, geopolitical competition, information warfare, global projects.

## Аннотация

**Др. Анзула Джафарова**

### Стратегическое партнерство и союз между Азербайджаном и Турцией в прессе

Стратегическое партнерство и союзничество в современных международных отношениях- одна из наиболее актуальных проблем, прошедшая суровые испытания временем. В этом отношении за последние 30 лет независимости нашей республики азербайджано-турецкие отношения успешно развивались и расширялись и достигли уровня стратегического союза. Сегодня как представитель мировой политики союз с Турцией означает защиту национальной безопасности и суверенитета Азербайджана от внешних угроз, в этом процессе национальные и турецкие СМИ играют важную роль. Неслучайно в результате совместной деятельности союзной прессы двух союзных стран урегулирование нагорно- карабахского конфликта в контексте территориальной целостности Азербайджана было в повестке дня международного сообщества, и его забвения или утверждения статус-кво в Азербайджане не произошло.

В статье анализируются дружеские и братские отношения между нашими странами, основанные на древних корнях, положительные результаты развития совместных отношений за все эти годы, целенаправленная деятельность азербайджанских СМИ по укреплению и защите союзнических отношений между двумя странами, перспективы новой геополитической ситуации на Южном Кавказе после 44-дневной войны по материалам СМИ.

**Ключевые слова:** Южный Кавказ, Азербайджан, Турция, Россия, Армения, Нагорный Карабах, СМИ, Шушинская декларация, территориальная целостность, пресса, стратегический союз, безопасность, геополитическая конкуренция, информационная война, глобальные проекты.